

# Ölkəmizin suverenliyinə yönəlmiş təhdidlərin qarşısı qətiyyətlə alınacaq

**Artıq iki ilə yaxındır ki, İkinci Qarabağ müharibəsi Azərbaycanın qalibiyyəti ilə başa çatıb. 30 il torpaqlarımızı işğal altında saxlayan düşmən kapitulyasiya aktı imzalayaraq bütün dünyanın gözü qarşısında təslim olduğunu etiraf etdi. 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin imzaladıqları üçtərəfli Bəyanatın 3-cü bəndinə əsasən Dağlıq Qarabağdakı təmas xətti və Laçın dəhlizi boyunca Rusiya sülhməramlı kontingenti yerləşdirilmişdir. Bəyanatın 4-cü bəndinə görə isə Rusiyanın sülhməramlı kontingentinin yerləşdirilməsi erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə həyata keçirilməli idi. Lakin bəyanatın həmin müddəasına zidd olaraq hələ də Azərbaycan ərazilərində qanunsuz erməni birləşmələri mövcuddur.**



44 günlük İkinci Qarabağ müharibəsində zəfər çalan qalib Azərbaycan bunun yolverilməz olduğunu dəfələrlə bəyan edərək düşmənin qanunsuz qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb etmişdir. Qanunsuz birləşmələrini Qarabağdan çıxarması, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirilməsi tələbinə məhəl qoymayan Ermənistan öz alçaq niyyətindən əl çəkməyərək nəinki Azərbaycanda, həmçinin bütün bölgədə sabitliyin, təhlükəsizliyin bərqərar olmasına mane olmağa çalışmışdır.

Baxmayaraq ki, artıq müharibənin bitməsindən təxminən iki ilə yaxın vaxt keçir, düşmən ölkə bu günə qədər nə bölgədəki iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi - vətəndaşların, nəqliyyat vasitələrinin, yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Zəngəzur dəhlizinin açılması, nə də ki, digər öhdəliklərin reallaşması üçün cəhd belə etməyib. Hər zaman olduğu kimi, riyakarlığından əl çəkməyən Ermənistan Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğun olaraq 5 baza prinsipinə əsaslanan sülh təklifini qəbul etsə də, hələ ki imzalamayıb.

Azərbaycan hökuməti erməni silahlı birləşmələrinin Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarılması üçün Rusiya Federasiyası qarşısında da məsələ qaldırmış, Ermənistanı buna məcbur etməməkdə günahlandırmışdır. Çünki 2020-ci il 10 noyabr Bəyanatını imzalayan tərəflərdən biri kimi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisindən düşmənin silahlı birləşmələrinin tamamilə çıxarılması barədə Rusiya tərəfinin verdiyi söz hələ də yerinə yetirilməyib.

Bu il avqust ayının 3-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağda qanunsuz erməni silahlı qüvvələrinə qarşı hərbi əməliyyat keçirilmişdir. Belə ki, Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Qarabağda vəziyyəti gərginləşdirmək məqsədilə avqustun 3-ü səhər saatlarında Laçın rayonu istiqamətində yerləşən Azərbaycan Ordusu bölmələrinin mövqelərini intensiv atəşə tutmuş, Ermənistanın qanunsuz silahlı qüvvələrinin həyata keçirdiyi terror-təxribat nəticəsində Azərbaycan ordusunun bir əsgəri şəhid olmuşdur. Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsilələrində Qırxqız yüksəkliyini ələ keçirməyə və orada öz mövqelərini yaratmağa çalışan terrorçu qüvvələrinə cavab olaraq Azərbaycan Ordusu "Qisas" antiterror əməliyyatı keçirərək qanunsuz erməni silahlı birləşmələrini minaatanlardan və pilotsuz uçuş aparatlarından atəşə tutmuş, qeyri-qanuni erməni silahlı dəstələrinin cəhdlərinin qarşısını almışdır. Əməliyyat nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər Azərbaycan bölmələri tərəfindən nəzarətə götürülmüşdür. Həmçinin, Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvlərinə məxsus "Ural" markalı hərbi yük avtomobili Sarıbaba yüksəkliyi yaxınlığında məhv edilmiş, düşmənin bir neçə döyüş mövqeyi dağıdılmışdır. Nəticədə, qanunsuz erməni silahlılarının canlı qüvvəsi, həmçinin bir neçə D-30 haubitsası, hərbi nəqliyyat vasitələri və çoxlu sayda döyüş sursatları məhv edilmişdir.

"Qisas" əməliyyatı ilə bağlı avqustun 4-də Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edərək Ermənistan ilə Azərbaycan arasında danışıqların davam etdirilməsi fonunda 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarının həyata keçirilməsinin vacibliyini qeyd etmiş və Fransa hökumətinin Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşmasına dəstək verməyə hazır olduğunu bildirmişdir. Azərbaycanın dövlət başçısı İlham Əliyev Azərbaycanın Qarabağ bölgəsində hərbi təxribat törədən Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni hərbi birləşmələrinin ərazilərimizdən çıxarılmasının təmin olunmasının vacibliyini Fransa Prezidentinin diqqətinə çatdırmışdır.

Avqust ayının 5-də isə ABŞ-ın dövlət katibi Entoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng etmiş və bölgədə baş verən hadisələrlə bağlı narahatlığını ifadə etmişdir. Azərbaycan Prezidenti İlham Əliyev ABŞ dövlət katibi ilə telefon danışığı zamanı bölgədə yaranmış gərginliyə görə bütün məsuliyyətin Ermənistanın üzərinə düşdüyünü bildirmiş və qeyd etmişdir ki, Azərbaycan dövləti dəfələrlə Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni hərbi birləşmələrinin ərazilərindən çıxarılması məsələsini qaldırmışdır. Lakin buna məhəl qoymayan Ermənistan avqust ayının 3-də növbəti dəfə hərbi təxribat törətmiş və Azərbaycan tərəfi də öz növbəsində bu hərbi təxribatın qarşısını almaq üçün adekvat cavab vermişdir.

Həmin gün İkinci Qarabağ müharibəsindən sonra bölgədə sülhün, sabitliyin təmin olunmasına, eyni zamanda Ermənistan - Azərbaycan münasibətlərinin normallaşmasına böyük səy göstərən Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasında telefon danışığı olmuşdur. Danışıq zamanı Aİ Prezidenti Brüssel sülh gündəliyinə uyğun olaraq Avropa İttifaqının regionda davamlı sülh və sabitliyin təmin olunması istiqamətində səylərini davam etdirəcəyini vurğulamışdır. Azərbaycan Prezidenti İlham Əliyev isə Ermənistanın Azərbaycanın Qarabağ bölgəsində yerləşmiş qoşunlarını ərazilərimizdən çıxarmamasını 2 ilə yaxın müddətdə 10 noyabr Bəyanatına əsasən üzərinə düşən öhdəlikləri yerinə yetirmədiyinin təzahürü olaraq qiymətləndirmişdir.

Fransa Respublikasının Prezidenti Emmanuel Makron, ABŞ-ın dövlət katibi Entoni Blinken və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin avqustun 3-də keçirilən "Qisas" əməliyyatı ilə bağlı Azərbaycanın dövlət başçısı İlham Əliyevə zəng etmələri artıq bütün dünyanın ermənilərin iç üzünü tanıdığının və həyata keçirdiyi yarıtmaz siyasəti ilə Cənubi Qafqazda sülhə, sabitliyə, təhlükəsizliyə, əməkdaşlığa mane olduğunu anladığının göstəricisidir. Bu həm də "Qisas" əməliyyatının dünya tərəfindən təbii qarşılanmasının təzahürüdür.

Azərbaycan dövləti bundan sonra da öz suverenliyinə toxunan hər cür terror təhdidlərinin qarşını qətiyyətlə alacaq, ərazilərində qanunsuz silahlı qüvvələrin, hərbi birləşmələrin mövcudluğuna qarşı daha sərt tədbirlər həyata keçirəcəkdir.

**M.ƏLİYEVA,**
**"Respublika".**

**Respublika.- 2022- ci il.- 10 avqust.- S. 9.**